# Aşıq Avdı dünyası

Ulu və müqəddəs ozan sənətinin görkəmli nümayəndələrindən biri olan Aşıq Avdı Qaymaqlı 60 il aşıqlıq etmiş, Dədə Qorqud sənətini sevdirməkdə və yaşatmaqda misilsiz xidmətlər göstərmişdir.

O, 72 klassik aşıq havasına daha bir hava "İncə gülü" havası və Azərbaycan şifahi xalq ədəbiyyatı xəzinəsinə özünün "Avdı və Mehriban" dastanını hədiyyə etmişdir.

...Aşıq Avdı cavan yaşlarında qonşuluqda Sənəm adlı gözəl bir qıza vurulur. Onu canı-qəlbdən sevir. Ancaq Avdı kasıb ailədən olduğuna görə qızı ona vermirlər. Aşıq Ələsgərin Səhnəbanısı kimi qızı varlı, hallı, imkanlı ailənin oğluna ərə verirlər. Atası Sənəmi ərə verdikdən sonra Avdı da Kəmərli kəndindən olan Yasəmən xanımla evlənir və onunla ömür-gün yoldaşı olur.

Ancaq Aşıq Avdı öz ilk məhəbbətini- Sənəmi yadından çıxara bilmir. Ömrünün sonuna kimi o ilk sevgisinə sadiq qalır. Şeirlərində Sənəmi Mehriban kimi tərənnüm edir. Onun adına çoxlu şeirlər qoşur. Nəhayət, özünün "Avdı və Mehriban" məhəbbət dastanını yaradır.

Aşıq Avdının "Mehriban" adlandırdığı gözəlin adına, onun şərəfinə həsr etdiyi şeirlərdən biri "Mehribanım" adlanır. Bu gəraylı aşıqlar və xanəndələr tərəfindən məclislərdə tez-tez oxunur:

*Bu qəlbimin guşəsində*
*Ucalırsan, Mehribanım.*
*Beyvəfa, fani dünyada*
*Sən solursan, Mehribanım.*

*Sən atlısan, piyadayam,*
*Gör nə dərdi ziyadayam,*
*El bil ki, dəryadayam,-*
*Qocalırsan, Mehribanım.*

*Müxənnətə getsin qadan,*
*Olmayasan el-obadan,*
*Gedə-gedə sən Avdıdan,-*
*Yad olursan, Mehribanım.*